# "Erməni riyakarlıqları sənədlərin işığında"

## *Pedaqogika üzrə elmlər doktoru Yusif Xıdır oğlu Qazıyevin yeni əsəri haqqında*

Bu əsərdə erməni şovinizminin əsrlərdən bəri Azəri və Anadolu türklərinin başına gətirdiyi fəlakətlər və saxtalıqlar haqqında yazılmış ilk tədqiqat əsərlərindəndir. Bu tədqiqat əsərini müstəqilliyimizin başlıca məhsullarından biri kimi qeyd etmək olar.

Belə ki, Azərbaycan xalqı əsrlərdən bəri arzusunda olduğu dövlət müstəqilliyini əldə etdikdən sonra erməni şovinizmi tərəfindən onun başına gətirdiyi fəlakət və müsibətləri qələmə almaq, əsl həqiqəti üzə çıxarmaq qismət oldu. Sovet hakimiyyəti dövründə qadağan olunmuş bu dəhşətlər araşdırılmağa yolu açdı. Bu yol bir daha aşağıdakı prezident fərmanları ilə istiqamətləndirildi: 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında (18 dekabr 1997-ci il), "Azərbaycanlıların soyqırımı haqqında" (26 mart 1998-ci il).Məlumdur ki, türklərin, xüsusən azəri türklərinin başına gətirilən müsibətlər bəşər tarixinin ən qanlı səhifələrindəndir. Ermənilərin türklər əleyhinə həyata keçirdiyi soyqırımların tarixi kökləri, siyasi-ictimai, ideoloji tərəfləri vardır və həmin cəhətlərin hər biri dərindən tədqiq olunmalı, aşkarlanıb əsl həqiqət dünya ictimaiyyətinə çatdırılmalıdır.

Çox təəssüf ki, azərbaycanlılar əleyhinə ermənilərin törətdiyi saysız-hesabsız cinayətlər lazımınca qələmə alınmamış, sənədləşdirilməmişdir. XX əsrdə bütün Zaqafqaziyada, Şərqi Anadoluda, İranda türk xalqlarına, xüsusən azərbaycanlılara qarşı ermənilərin vəhşilikləri tarixi sənədlərdə lazımınca əks olunmamış, dəhşətli mənzərələrin təsviri verilməmişdir. Ermənilər isə saxta və hipnoz sənəd və uydurmalarla saxta tarix düzəldib, onları bədii əsərlərdə, Kütləvi İnformasiya Vasitələrində inandırıcı şəkildə əks etdirib, özlərini dünyada əzabkeş, "soyqırıma məruz qalmış" millət kimi tanıtmışlar.

Məsələn, 1988-ci ildə Sumqayıt hadisələri zamanı 26 erməni ermənilərin özləri tərəfindən azərbaycanlı adı altında öldürülmüşdü. Bu hadisəyə dair filmlər çəkilmiş, kitablar çap olunmuş, sərgilər təşkil edilmiş, bütün dünyanın məlumat vasitələri ilə ara verməndən bu barədə danışmışlar. Həmin il isə "Ermənistan" ərazisində ermənilər tərəfindən 500 nəfərdən artıq adam vəhşicəsinə qətlə yetirilmişdir ki, onların 216 nəfərinin siyahısı keçmiş Sovet prokurorluğuna və Azərbaycan istintaq orqanlarına göndərilmiş materiallar əsasında tərtib edilmişdir və "Ülfət" (Azərbaycan Həmkarlar İttifaqlarının Orqanı) qəzetinin 22 fevral 1992-ci il tarixli nömrəsində dərc olunmuşdur. Lakin bu barədə demək olar ki, heç bir tutarlı tarixi, publisist yaxud təsviri əsər yazılmamışdır. Həmin hadisələr haqqında kinolent, fotoşəkillər yoxdur. Yalnız hadisələrdən bir il sonra öldürülənlərin siyahısı müəyyən edilmiş, yuxarıda göstərilən tarixdə çap edilmişdir. Ona görə də 1988-ci ildə Ermənistan ərazisində baş verən cinayətlər nəinki dünya ictimaiyyətinə, heç Azərbaycan xalqının özünə də məlum olmamışdır.

Məhz bu baxımdan pedaqogika üzrə elimlər doktoru, Qərbi Azərbaycandan qaçqın Yusif Xıdır oğlu Qazıyevin "Erməni riyakarlıqları sənədlərin işığında"monoqrafiyası Azərbaycan xalqının erməni şovinizmə qarşı mübarizəsində böyük əhəmiyyət kəsb edir.



Monoqrafiya giriş, fəsil, nəticə, təklif, istifadə olunan ədəbiyyatdan və çap edilmiş məqalələrin siyahısından ibarətdir.

"Erməni şovinizminin hədəfləri, Erməni separatçılıq və terrorçuluğuna dəstək verən qüvvələr" adlanan **I FƏSİL** 3 paraqrafdan ibarətdir. Birinci paraqrafda Osmanlı imperiyasında xalqların hüquq bərabərliyi, türkün səxavəti, erməni xəyanəti haqqında danışılır. Burada erməni separatçı və terror qruplarının Osmanlı imperiyasının başına gətirdiyi fəlakətlər haqqında sübutlar və dəlillər faktlarla izah edilir. İkinci paraqrafda Osmanlı imperiyasına və müasir Türkiyə Respublikasına qarşı Qərbin separatçılıq siyasəti və bu siyasətin ideoloqları, aparıcı qüvvələri haqqında geniş məlumat verilir. Həmçinin erməni saxtakarlığı, uydurma və yalanları aşkarlanır. Üçüncü paraqrafda dünya miqyasında terrorun təşkilatçıları və kimlərin bu soyqırım və terrora məruz qaldığı və onların icraçıları haqqında danışılır.

**II FƏSİL** Azərbaycan torpaqlarından "Ermənistan" yaradılmışdır. Bu fəsil 2 paraqrafdan ibarətdir. Birinci paraqrafda ermənilərin vətənləri və dövlətçilikləri haqqında danışılır. Buradaermənilərin heç bir tarixi coğrafi vətənlərinin olmaması, onlar dağınıq halda yaşamışlar, yalnız tarixin müəyyən məqamlarında yerli əhalinin sayına baxmadan az ömürlü vassal bəylikliyə (knyazlığa özlərinin sözləri ilə desək "erməni çarlığına") malik olduqları faktlarla izah edilir və ermənilərin məkrli böhtançılığı, saxta və fırıldaqçılığı haqqında danışılır. Həmçinin burada öz dövrünün görkəmli dövlət xadimlərinin, filosof və ədiblərinin, səyyah və tarixçilərinin dedikləri deyimlər və ifadələr verilmişdir. İkinci paraqrafda ermənilərin mənşəyi, tarixi, dilləri və dinləri, həmçinin müasir Ermənistan haqqında geniş məlumat verilir.

**III FƏSİL** Qərbi Azərbaycanın (indiki Ermənistan) tarixi-coğrafi keçmişinə dair qısa səyahət adlanır. 4 paraqrafdan ibarət olan bu fəsildə tarixi Azərbaycan (indiki Ermənistan) torpaqlarında mövcud olan abidələrimizin, ziyarətgahlarımızın vandalizm nəticəsində məhv edilməsi, həmin ərazilərdə azərbaycanlı əhalinin milli tərkib, dinamikası və ərazisinə dair Sovet hakimiyyəti dövründə müxtəlif illər üzrə müxtəlif məzmunlu cədvəllər yerləşir.

**IV FƏSİL** "erməniseparatçılarının terror fəaliyyəti"adı altında 6 paraqrafda erməni şovinistlərinin baş vermiş hadisələrdən (müharibələrdən, ixtişaşlardan, qeyri-adi situasiyalardan) istifadə edərək Azərbaycan və Anadolu türklərinin başlarına gətirdikləri fiziki və mənəvi faciələrdən danışılır. Bu fəsildə erməni məkr və xəyanətləri ifşa edir. Burada Rus imperiyasının yardımı və dəstəyi ilə xalqımızın başına gələn faciələrin təsnifatı verilir. "Böyük Ermənistan" uğrunda ermənilərin müxtəlif dövrlərdə, xüsusən Birinci Dünya müharibəsinin gedişində törətdikləri terror aksiyalarından, satqınçılıq əməllərindən danışılır.

"Soyqırım gerçəkliyi" adlanan **V FƏSİL** 6 paraqrafı əhatə edir. Burada ermənilərin saxta uydurulmuş erməni soyqırımı mifi ifşa edilir, tarixi həqiqətlərdən söhbət açılır, türk-azəri soyqırımlarından və onların təşkilatçılarından, türk-azəri soyqırımının qarşısının alınması üçün Osmanlı dövlətinin təcili tədbirlərindən və xilaskar türk ordusunun fəaliyyətindən, Sovet dövründə Azərbaycan xalqının yaşadığı faciələr silsiləsindən, bunlar barədə faktlar və şahid ifadələri əks etdirilir.

**VI FƏSİL** "Böyük Ermənistan" ideyasının yenidən gündəliyə gəlməsi və Azərbaycan xalqına qarşı yeni soyqırımlarının yeni mərhələri" adlanır. Burada 3 paraqraf altında erməni terrorunun dövrləri və növləri səciyyələndirilir, xüsusən səssiz soyqırımı və onun növlərindən danışılır. Burada vəziyyətdən çıxış yolları və mübarizələrdən danışılır, ibrət dərsləri almaq və biganəliyə son qoymaq təklifi və tələbləri qoyulur.

**VII FƏSİL** "SSRİ hakimiyyətinin ikilistandartlı siyasətinin nəticəsi Sovet dövlətini məhvə apardı" adlanır. Bu fəsil 2 paraqrafdan ibarətdir.

Birinci paraqrafda izah edilir ki,Sovet hakimiyyətini zəbt etmiş erməni diasporu hakimiyyət böhranı yaratdı. Dövlət qarşısını ala bilmədi, güc tətbiq etdi. Bu da böhranı daha da yürləndirdi. İkinci paraqrafdan güc nəticəsində 20 yanvar faciəsi və SSRİ-nin digər bölgələrində xoşa gəlməz baş verdi.

**VIII FƏSİL** "Erməni şovinizminin terror vəhşətlərindən" adlanır. Bu fəsildən ermənilərin qədim dövrdən terrorçuluqlarından və Ermənistanın terrorçu dövlət olmasından və onun yaratdığı terror qruplarından danışılır.

**IX FƏSİL** "Erməni saxtakarlığı və plagiatorçuluğu" adlanır.Bu fəsil 5 paraqrafdan ibarətdir.

Birinci paraqrafda ermənilərin Azərbaycan folklyor yaradıcılığından (dastanlar, atalar sözü, lətifələr, aşıq yaradıcılığı) plagiyatorçuluğundan, ikinci paraqrafda isə şifahi və yazılı Azərbaycan xalq ədəbiyyatından və incəsənətindən edilən plagiyatorçuluğundan danışılır. Hər iki paraqrafda erməni plagiyatorçuluğu misal və nümunələrlə təsdiqini tapır. Üçüncü paraqrafda ermənilərin müasir dövrdə də Azərbaycan ədəbiyyat və incəsənətindən plagiyatorçuluq etmələrindən danışılır. Bununla müəllif faktlarla əsaslandırır ki, erməni xalq yaradıcılığı, ədəbiyyat və incəsənəti hibritdir, o Azərbaycan xalq yaradıcılığından, ədəbiyyat və incəsənətindən plagiyatorçuluq edilmişdir. Dördüncü paraqrafda Alban abidələrinin və etnosunun genosidindən və erməniləşdirilməsindən geniş söhbət açılır. Beşinci paraqrafda erməni saxtakarlığından, hipnoz və böhtanından, erməni xəstəliyi və gen dəyişdirmə cəhdindən, erməni mətbuat və lobbisindən danışılır.

**X FSSSİL** "Əlavələr" adlanır. Bu fəsil 19 əlavədən ibarətdir. Burada ermənilərin müxtəlif illərdə, müxtəli ərazilərdə yaşadıqlarını əks etdirən xəritələr, Azərbaycan xalqına qarşı törətdikləri soyqırım faktlarını göstərən fotoşəkillər, ermənilərin terrorçu fəaliyyətləri haqqında xarici alimlərin münasibətləri göstərilir və erməni soyqırımının son dövrlərdəki həqiqətlərindən və erməni diasporları haqqında geniş məlumatlar verilir, Azərbaycan xalqına qarşı yönəlmiş qərəz və qərarları ifadə edən yaddaşlar haqqında geniş məlumatlar verilir.

**SON HİSSƏ NƏTİCƏDİR** ki, bu da geniş həcmli kitabın məzmununu əhatə edir və əməli təkliflər irəli sürür. Bununla yanaşı, hər bir fəsil və paraqrafın adı məzmununu doğruldur. Monoqrafiya uzun illərin tədqiqat məhsuludur. Onun praktik və elmi əhəmiyyəti ondan ibarətdir ki, o erməni şovinizminin saxtakarlığını, böhtan və iftralarını alt-üst edir. Ermənilərin özləri fakt qarşısında qalırlar ki, hansı faktlar və dəlillər, hansı tarixi xəritələr və hərbi yürüşlər əsasında "Böyük Ermənistan" yaranıb mövcud olmuşdur.

Monoqrafiyada erməni xalqının hibrit xalq, onun hibrit mədəniyyət və incəsənətə, hibrit folklar yaradıcılığı və ədəbiyyata, hibrit etnoqrafiya və tarixə malik olduğu sübut olunur.

Əsərin nəzəri və praktiki əhəmiyyəti bir daha ondan ibarətdir ki, o hər bir oxucu türk və azərbaycanlının vətənpərvər hisslərini gücləndirmək və düşmənə nifrət etmək hisslərinə malikdir. Hər bir oxucu erməni zülmünü hiss edir və nəticədə torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə səbəb olur.

*C.Ə.* Bəhramov ,
***tarix üzrə fəlsəfə doktoru, professor***

